# “NAMİZƏDİN ELEKTRON ƏRİZƏSİ”NİN DOLDURULMA QAYDASI

**Namizəd elektron ərizə formasını aşağıdakı qaydada doldurur:**

Namizəd ali təhsil müəssisəsinə qəbul olunduqdan sonra soyadında, adında və ya atasının adında dəyişiklik olubsa, əvvəlki soyadını, adını və ya atasının adını **2(S), 2(A) və 2(AA)** bəndlərində müvafiq sahələrdə Azərbaycan əlifbası ilə qeyd edir;

**8-ci bənddə** namizədin “Şəxsi kabinet”ində qeyd etdiyi faktiki yaşadığı məntəqənin adı əks olunur. Bu bənddə namizəd heç bir əməliyyat aparmır. Namizədin imtahan verəcəyi şəhər Mərkəz tərəfindən namizədin ərizəsinin bu bəndində göstərildiyi faktiki yaşadığı məntəqəyə görə təyin edilir;

**9-cu bənddə** namizəd özünün e-mail ünvanını daxil edir (bu ünvandan iş nömrəsini, şifri unutduqda və digər zəruri hallarda namizədlə əlaqə saxlamaq üçün istifadə olunacaqdır);

**10-cu bənddə** namizədin “Şəxsi kabinet”ində qeyd etdiyi əlaqə telefonu əks olunur. Bu bənddə namizəd heç bir əməliyyat aparmır;

**11-ci bənddə** bitirdiyi ümumi təhsil müəssisəsinin (və ya orta ixtisas təhsili müəssisəsinin) yerləşdiyi yaşayış məntəqəsinin adını, sonra isə bitirdiyi ümumi təhsil müəssisəsinin (və ya orta ixtisas təhsili müəssisəsinin) adını siyahıdan seçir, həmin təhsil müəssisəsini bitirdiyi ili müvafiq sahəyə daxil edir;

**12-ci bənddə** əsas (baza ali) tibb təhsili üzrə ali təhsil müəssisəsinə qəbul olunduğu ili daxil edir;

**13-cü bənddə** əsas (baza ali) tibb təhsili üzrə ali təhsil müəssisəsinə qəbul olunmaq üçün doldurduğu “Abituriyentin ərizəsi"nin nömrəsini daxil edir;

**13.1-ci bənddə** əsas (baza ali) tibb təhsili haqqında məlumat: “Əsas (baza ali) tibb təhsilini bitirib – məzundur”, “Əsas (baza ali) tibb təhsilini cari ildə bitirəcək – cari ilin məzunudur” və ya “Əsas (baza ali) tibb təhsilini növbəti illərdə bitirəcək – məzun deyil” bölmələrindən birini siyahıdan seçir;

**14-cü bənddə** əsas (baza ali) tibb təhsili üzrə bitirdiyi ali təhsil müəssisəsinin adını siyahıdan seçir, bu ali təhsil müəssisəsini bitirdiyi ili (əsas (baza ali) tibb təhsilinin 3-cü kursunu tam bitirmiş tələbələr – bitirəcəyi ili) müvafiq sahəyə daxil edir;

**15-ci bənddə** əsas (baza ali) tibb təhsili üzrə diplomunun seriyasını siyahıdan seçir, diplomun nömrəsini müvafiq sahəyə daxil edir (bu bənd yalnız məzunlara aiddir);

**16-cı bənddə** əsas (baza ali) tibb təhsili üzrə bitirdiyi ixtisasın şifrini və kodunu siyahıdan seçir;

**17-ci bənddə** diplom üzrə ümumi orta müvəffəqiyyət göstəricisinin (ÜOMG) neçə ballı sistemdə olduğunu uyğun dairəni seçməklə qeyd edir və müvafiq hissədə ÜOMG-ni göstərir (bu bənd yalnız məzunlara aiddir);

**18-ci bənddə** əsas (baza ali) tibb təhsilini fərqlənmə diplomu ilə başa vurubsa, müvafiq sahəni seçir;

**19-cu bənddə** namizəd imtahan verəcəyi dilə uyğun dairəni (Azərbaycan və ya rus) seçir;

**20-ci bənddə** əsas (baza ali) tibb təhsili istiqamətini seçir;

**21-ci bənddə** rezidenturaya qəbulun I mərhələsində – baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında “məqbul” alanlar cari ildə bu imtahanda iştiraklarına dair müvafiq sahəni seçir.